*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2026*
*Səh. 406-411*

https://doi.org/10.62837/2026.2.406

**HEYDƏRLİ ŞƏBNƏM MÜQABIL QIZI**
**Azərbaycan Dillər Universiteti**
**Dünya ədəbiyyatı və nəzəriyyəsi kafedrası**
**shebnem.heyderli2000@gmail.com**

# CEYN OSTİN YARADICILIĞINDA QADIN OBRAZLARININ İNİKASI XÜSUSİYYƏTLƏRİ

**Xülasə**

C.Ostin romanlarında qadın psixologiyasını, onun sosial statusunu və azadlığını təsvir edir. Onun romanları XIX əsr İngiltərəsinin sosial normaları daxilində qadının özünüifadə axtarışlarını təqdim edir. C.Ostinin qəhrəmanları nəzakətli, iradəli və ləyaqətli qadınları təcəssüm edirlər. Həmçinin yazıçının qadın qəhrəmanları dövrünün digər qadınlarından köklü şəkildə fərqlənir. Onlar öz mühakimələri, yumor hissi və hətta səhv etmək cəsarəti ilə yeni qəhrəman tipini irəli çəkirlər. Digər tərəfdən bu qadınlar mülkiyyət hüququnun olmamasını uğurlu nikah axtarışları ilə təqdim edir, beləliklə, münaqişə yaradan amilləri tənqid hədəfinə çevirirlər. Bu səbəbdən C.Ostin qəhrəmanları statik deyillər. Onlar hadisələrin gedişatında öz səhvlərini anlayır və təkmilləşirlər. Məqalə müəllifi bu kimi fikirləri əsas gətirərək belə bir qənaətə gəlir ki, C.Ostinin qadın obrazları sadəcə müşahidəçi deyil, öz taleyini həll edə bilən, hətta öz həyatı yolunda mübarizə aparan qəhrəmanlardır.

**Açar sözlər:** C.Ostin, realizm, qadın obrazları, sosial status, roman

Ceyn Ostinin yaradıcılığı XVIII əsrin sonu – XIX əsrin əvvəllərində İngilis ədəbiyyatının inkişaf tarixində keçid və yenilənmə mərhələsini təmsil edir. Onun romanları zahirən gündəlik həyat hadisələrinə, ailə və məişət münasibətlərinə əsaslansa da, bu sadə struktur daxilində mürəkkəb sosial və mənəvi problemlər əks olunur. C.Ostin cəmiyyətdəki problemləri adi insanların həyat təcrübəsi üzərindən göstərir. Bu yanaşma yazıçıya insan xarakterinin formalaşmasında sosial mühitin rolunu daha aydın şəkildə üzə çıxarır. C.Ostinin əsərlərində aristokratiya ilə orta təbəqə arasındakı münasibətlər yalnız sosial fərqlərin təsviri ilə məhdudlaşmır, eyni zamanda bu fərqlərin insan davranışına və mənəvi seçimlərə təsiri də araşdırılır. Maddi imkanlar çox vaxt xarakterin mahiyyətini üzə çıxaran sınaq vasitəsinə çevrilir. Evlilik məsələsi isə yazıçının yaradıcılığında mərkəzi mövzulardan biri kimi çıxış edir. C.Ostin evliliyi romantik ideallaşdırmadan uzaq tutaraq, onu həm sosial institut, həm də fərdi xoşbəxtlik axtarışı kontekstində təqdim edir. Bu iki anlayış arasındakı ziddiyyət isə xüsusilə qadın obrazlarının taleyində özünü qabarıq şəkildə göstərir.

Yazıçının bədii sistemində qadın obrazlarının ön planda olması təsadüfi deyil. Patriarxal cəmiyyət şəraitində qadının hüquqi və iqtisadi müstəqilliyinin olmaması onun həyat yolunu ciddi şəkildə məhdudlaşdırır. Qadının sosial statusu əksər hallarda ailə mənsubiyyəti və evlilik seçimləri ilə müəyyən edilirdi. C.Ostin bu sosial reallığı

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 406-411*

obyektiv şəkildə təqdim etsə də, onunla barışmır. O, qadınların cəmiyyət tərəfindən müəyyən edilmiş rollarını incə yumor, ironiya və psixoloji analiz vasitəsilə sorğulayır. Sandra Gilbertə görə yazıçının ironiyasının arxasında sosial tənqid dayanır [6, s.19]. Bu baxımdan Ostinin romanları yalnız bədii mətn deyil, həm də dövrün sosial münasibətlərinə yönəlmiş tənqidi düşüncə nümunəsi kimi çıxış edir.

Ostinin qadın qəhrəmanları daxili zənginliyi, düşüncə dərinliyi və mənəvi mövqeyi ilə seçilirlər. Onlar hadisələrə tabe olan passiv fiqurlar deyil, baş verənləri dərk edən, qiymətləndirən və nəticə çıxaran obrazlardır. Yazıçı qadın ağlını və rasional düşüncə qabiliyyətini ön plana çıxararaq, qadının yalnız hisslərin təsiri altında hərəkət edən varlıq olması fikrini təkzib edir. Bu yanaşma dövrün ədəbi ənənələri üçün yenilik xarakteri daşıyır və qadın obrazlarının bədii statusunu yüksəldir. Məhz bu səbəbdən "Qürur və qərəz", "Mansfild park" və "Nortenger abbatlığı" romanları qadınların sosial mövqeyi və mənəvi azadlıq axtarışının müxtəlif aspektlərini əks etdirən mühüm əsərlər kimi qiymətləndirilir.

C.Ostinin romanlarında qadınların sosial mövqeyi tarixi və hüquqi reallıqlar fonunda təqdim olunur. XVIII əsrin sonu İngiltərəsində qadınların mülkiyyət hüququnun olmaması və iqtisadi asılılığı onların həyat seçimlərini ciddi şəkildə məhdudlaşdırırdı. Bu şəraitdə evlilik qadın üçün emosional bağlılıqdan daha çox sosial təhlükəsizlik funksiyasını daşıyırdı. Qadının gələcək rifahı çox vaxt şəxsi keyfiyyətlərindən deyil, evlilik vasitəsilə daxil olduğu sosial çevrədən asılı olurdu. Kladuia Conson yazır ki, C.Ostin bu stereotipləri dağıdır və qadının azad və xoşbəxt olmaq istəyini təbii halı kimi təqdim edir [5, s.28].

"Qürur və qərəz" romanında Bennet ailəsinin hüquqi və sosial vəziyyəti bu reallığın bariz nümunəsidir. Mülkün kişi varisə keçməsi qanunu ailənin qadın üzvlərini qeyri-müəyyən gələcək qarşısında qoyur. Xanım Bennetin davranışları və narahatlığı bu hüquqi sistemin qadın psixologiyasına təsirini açıq şəkildə göstərir. Lakin Elizabet Bennet bu sosial təzyiqi tənqidi şüurla dəyərləndirir. O, maddi sabitliyi tamamilə inkar etməsə də, evliliyin yalnız sosial status vasitəsinə çevrilməsinə qarşı çıxır və şəxsi ləyaqətini öndə tutur. Elizabetin bu mövqeyi qadının sosial çərçivələr daxilində belə mənəvi müstəqillik nümayiş etdirə biləcəyini göstərir. Görünür elə bu səbəbdən tənqidçi Sausi Suy yazırdı ki, C.Otinin qəhrəmanı öz taleyini həll edə bilən, öz kimiliyini qoruyan fərd kimi görünür [7, s. 41].

"Mansfild park" romanında Fanni Praysın taleyi sosial bərabərsizliyin daha sərt formalarını əks etdirir. Kasıb ailədən gələn Fanni varlı qohumlarının evində böyüsə də, daim ikinci dərəcəli mövqedə qalır. Onun sosial statusu ona münasibətdə həm mərhəmət, həm də gizli üstünlük hissi yaradır. Bu vəziyyət Fanninin davranışlarında təmkin, ehtiyatlılıq və daxili özünəqapanma formasında təzahür edir. C.Ostin bu obraz vasitəsilə maddi asılılığın qadının psixoloji vəziyyətinə necə təsir etdiyini nümayiş etdirir. "Nortenger abbatlığı" romanında Ketrin Morland sosial baxımdan daha sabit mühitdə böyüyən bir obraz olsa da, onun da davranışları cəmiyyətin gənc

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2026*
*Səh. 406-411*

qadınlara yönəltdiyi gözləntilərlə formalaşır. Ketrinin sadəlövhlüyü və təxəyyülə meyli sosial təcrübənin azlığı ilə bağlıdır. C.Ostin bu romanda satirik üslubdan istifadə edərək, cəmiyyətin qadınları müəyyən davranış modellərinə uyğunlaşdırmaq cəhdlərini tənqid edir və sosial normaların fərdi düşüncəni necə məhdudlaşdıra bildiyini göstərir.

Beləliklə, hər üç romanda qadınların sosial mövqeyi fərqli sosial mühitlərdə təqdim edilsə də, onları birləşdirən əsas cəhət patriarxal sistemin qoyduğu sərhədlərlə üzləşmələridir. C.Ostin bu sərhədləri təsvir etməklə kifayətlənmir, eyni zamanda qadınların bu çərçivələr daxilində göstərdikləri mənəvi mövqeyi və düşüncə azadlığını önə çıxarır. C.Ostinin yaradıcılığının ən mühüm və yenilikçi cəhətlərindən biri qadın ağlına, rasional düşüncəyə və tənqidi təhlil qabiliyyətinə verdiyi xüsusi əhəmiyyətlə bağlıdır. XVIII–XIX əsrlər ədəbiyyatında qadın obrazları çox vaxt emosiyaların təsiri altında qərar verən, hadisələrə passiv şəkildə reaksiya göstərən fiqurlar kimi təqdim olunurdu. C.Ostin bu stereotip yanaşmanı qətiyyətlə rədd edərək qadını düşünən, müşahidə edən və öz mühakimələrinə əsaslanaraq mövqe müəyyən edən şəxsiyyət kimi təsvir edir. Yazıçı üçün qadın ağlı yalnız fərdi keyfiyyət deyil, həm də cəmiyyətin mənəvi sağlamlığını ölçən göstəricidir. Ostinin romanlarında qadın intellekti sabit və dəyişməz bir xüsusiyyət kimi deyil, həyat təcrübəsi, sosial münasibətlər və daxili özünüdərk prosesi ilə formalaşan dinamik bir fenomen kimi təqdim olunur. Qadın qəhrəmanların düşüncə tərzi hadisələrin gedişində inkişaf edir, səhvlər və yanlış qənaətlər vasitəsilə təkmilləşir. Bu yanaşma yazıçının insan ağlını mütləq həqiqət daşıyıcısı kimi deyil, öyrənən və yetkinləşən bir struktur kimi dəyərləndirdiyini göstərir. “Qürur və qərəz” romanında Elizabet Bennet qadın ağlının və tənqidi düşüncənin ən parlaq təcəssümü kimi çıxış edir. O, ətrafındakı insanları diqqətlə müşahidə edir, onların davranışlarını və nitqlərini müqayisə edir, sosial münasibətlərin mahiyyətini anlamağa çalışır. Elizabetin ən mühüm xüsusiyyətlərindən biri onun öz mühakimələrinə kor-koranə bağlanmamasıdır. O, səhv etdiyini anladıqda, əvvəlki fikirlərini yenidən nəzərdən keçirməyə və mövqeyini dəyişməyə hazırdır. Bu xüsusiyyət onun intellektual yetkinliyinin və tənqidi şüurunun göstəricisidir. Elizabet Bennetin daxili inkişaf yolu özünütənqid və rasional təhlil üzərində qurulmuşdur. O, cəmiyyətin yaratdığı qanunların təsirinə düşsə də, zamanla hər şeyi dərk edir və bu problemdən azad olmağa çalışır. C.Ostin bu obraz vasitəsilə qadın ağlının yalnız düzgün qərar vermək deyil, eyni zamanda səhvləri qəbul edib onları aradan qaldırmaq bacarığı ilə ölçüldüyünü göstərir. Elizabetin intellekti onun müstəqil düşüncə qabiliyyətini və mənəvi mövqeyini möhkəmləndirən əsas amilə çevrilir. “Mansfild park” romanında Fanni Prays qadın düşüncəsinin fərqli, daha sakit və zahirən passiv modelini təmsil edir. İlk baxışda Fanni emosional baxımdan zəif və qərarsız təsir bağışlaya bilər. Lakin onun səssizliyi və təmkinli davranışı intellektual çatışmazlıqdan deyil, daxili möhkəmlikdən və dərin əxlaqi prinsiplərdən qaynaqlanır. Fanninin düşüncə tərzi yüksək səslə ifadə olunan fikirlərdən deyil, daxili müşahidə və mənəvi qiymətləndirmədən ibarətdir.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 406-411*

Fanni Prays ətrafındakı insanların davranışlarını sabit etik meyarlar əsasında dəyərləndirir və bu meyarlardan kənara çıxmır. O, sosial mühitin təzyiqlərinə baxmayaraq, öz mühakimələrinə sadiq qalır. Ostin bu obrazla ağıl və məntiq anlayışının yalnız fəallıq və nitq qabiliyyəti ilə ölçülmədiyini, bəzən səssiz müqavimət və daxili ardıcıllığın da yüksək intellektual səviyyənin göstəricisi olduğunu vurğulayır. Fanninin düşüncə tərzi emosional impulslarla deyil, dərin mənəvi təhlillə formalaşır. "Nortenger abbatlığı" romanında Ketrin Morlandın düşüncə tərzi isə inkişaf və dəyişmə prosesində təqdim olunur. Romanın əvvəlində Ketrin qotik ədəbiyyatın təsiri altında reallığı xəyallarla qarışdırır, hadisələrə romantik və bəzən əsassız şübhələrlə yanaşır. Bu mərhələdə onun düşüncə tərzi yetkinləşməmiş, təcrübəsiz ağlın təzahürü kimi çıxış edir. Lakin həyat təcrübəsi artdıqca, sosial münasibətlərlə daha yaxından tanış olduqca Ketrin tənqidi düşünmə bacarığını inkişaf etdirir. Ketrinin intellektual inkişafı faktlarla xəyallar arasında sərhəd qoymağı öyrənməsi ilə xarakterizə olunur. O, reallığı olduğu kimi dərk etməyə başlayır və emosional təsəvvürlərin təsirindən tədricən uzaqlaşır. C.Ostin bu obraz vasitəsilə qadın ağlının formalaşmasının mərhələli və təbii proses olduğunu göstərir. Ketrinin inkişaf yolu qadın intellektinin zamanla, sosial təcrübə və özünüdərk vasitəsilə yetkinləşdiyini əks etdirir. Abdullayeva yazır ki, obrazların belə transormasiyası "gözəlliyə, yaxşılığa, özünüdərkə gedən yoldur" [1, s.5].

Beləliklə, görmək olur ki, C.Ostin qadın intellektini sabit və dəyişməz bir keyfiyyət kimi deyil, inkişaf edən, zənginləşən və formalaşan bir fenomen kimi təqdim edir. Onun qadın qəhrəmanları müxtəlif düşüncə modellərini təmsil etsələr də, hamısını birləşdirən əsas cəhət rasional təhlil qabiliyyəti və mənəvi mövqeyə sadiqlikdir. C,Ostinin bu yanaşması qadın ağlını ədəbiyyatda yeni mərhələyə yüksəldir və qadın obrazlarının intellektual potensialını bədii düşüncənin mərkəzinə gətirir. Ceyn Ostinin yaradıcılığında daxili azadlıq anlayışı qadın obrazlarının formalaşmasında əsas ideya xəttlərindən birini təşkil edir. Yazıçı üçün azadlıq anlayışı yalnız hüquqi və ya iqtisadi müstəqilliklə məhdudlaşmır. Əksinə, C.Ostin qadının həqiqi azadlığını onun daxili mövqeyində, mənəvi prinsiplərə sadiqliyində və şəxsi seçim haqqını qorumaq bacarığında görür. Bu baxımdan C,Ostinin romanlarında qadın azadlığı fiziki hərəkət sərbəstliyindən daha çox, düşüncə və vicdan azadlığı kimi təqdim olunur. Elizabet cəmiyyətin evliliklə bağlı qoyduğu sərt tələblərə tənqidi yanaşır və şəxsi seçim hüququnu qorumağa çalışır. O, qarşılıqlı hörmətə və mənəvi uyğunluğa əsaslanmayan evlilik təkliflərini qətiyyətlə rədd edir. Bu davranış onun sosial normalara qarşı açıq üsyanı deyil, daxili azadlığının və mənəvi müstəqilliyinin təzahürüdür. Elizabet üçün azadlıq maddi təminatdan daha çox, şəxsi ləyaqətin qorunması ilə ölçülür. Elizabetin daxili azadlığı onun özünü dərk etmə prosesində də özünü göstərir. O, səhvlərini qəbul etməyi və yanlış mühakimələrini yenidən nəzərdən keçirməyi bacarır. Bu xüsusiyyət onun yalnız intellektual deyil, eyni zamanda mənəvi azadlığa sahib olduğunu göstərir. C.Ostin bu obraz vasitəsilə qadının azadlığının özünü dərk etmə və vicdanla üzləşmə qabiliyyəti ilə birbaşa əlaqəli olduğunu vurğulayır. Fanni Prays daxili azadlığın daha sakit, lakin daha

möhkəm modelini təmsil edir. Zahirən itaətkar və passiv görünən Fanni əslində güclü mənəvi mövqeyə malikdir. O, ailəsinin və ətraf mühitin təzyiqlərinə baxmayaraq, öz əxlaqi prinsiplərindən geri çəkilmir. Fanninin Henri Kroufordun maddi cəhətdən sərfəli evlilik təklifini rədd etməsi onun daxili azadlığının ən bariz göstəricilərindən biridir. Bu qərar Fanninin maddi asılılıqdan daha çox mənəvi bütövlüyə üstünlük verdiyini nümayiş etdirir. Fanni Praysın daxili azadlığı səssiz müqavimət formasında özünü göstərir. O, açıq qarşıdurmadan qaçsa da, vicdanına zidd olan qərarları qəbul etmir. Ostin bu obraz vasitəsilə göstərir ki, azadlıq həmişə açıq mübarizə şəklində təzahür etmir; bəzən daxili mövqeni qorumaq daha böyük cəsarət tələb edir. Fanninin mənəvi sabitliyi onun zəifliyi deyil, əksinə, daxili gücünün ifadəsidir. Ketrin Morlandın daxili azadlığı isə inkişaf və formalaşma prosesində təqdim olunur. Romanın əvvəlində Ketrin başqalarının təsirinə açıq, sadəlövh və asanlıqla yönləndirilən bir obrazdır. Onun daxili azadlığı hələ tam formalaşmamışdır. Lakin həyat təcrübəsi artdıqca və reallığı daha aydın dərk etdikcə Ketrin öz mühakimələrinə güvənməyi öyrənir. O, yanlış təsəvvürlərdən azad olaraq, özünü və ətraf mühiti daha obyektiv qiymətləndirməyə başlayır. Ketrinin daxili azadlığının formalaşması onun xəyallarla reallıq arasındakı sərhədi dərk etməsi ilə bağlıdır. O, cəmiyyətin və ədəbiyyatın yaratdığı süni təsəvvürlərdən uzaqlaşaraq, şəxsi düşüncə və təcrübəyə əsaslanan mövqe formalaşdırır. Ostin bu obrazla qadının daxili azadlığının zamanla və təcrübə ilə inkişaf etdiyini göstərir. Nəticə olaraq onu da qeyd edək ki, C.Ostinin romanlarında daxili azadlıq qadının öz mənəvi dəyərlərinə sadiq qalması, vicdanına uyğun qərarlar verməsi və şəxsi seçim haqqını qoruması ilə ifadə olunur. Yazıçı qadın azadlığını cəmiyyətin sərt çərçivələrinə qarşı açıq mübarizədə deyil, daxili möhkəmlikdə və düşüncə müstəqilliyində görür. Məhz bu yanaşma C,Ostinin qadın obrazlarını həm tarixi, həm də müasir kontekstdə actual edir.

## Ədəbiyyat siyahısı

1. Abdullayeva, Y. (2025). Iris Murdoch's "Under the Net": Symbiosis of Philosophical Novel Traditions with "The open work". ВЧЕНІ ЗАПИСКИ.
2. Austen, J. (1996). Pride and Prejudice. London: Penguin Classics.
3. Austen, J. (2008). Mansfield Park. Oxford: Oxford University Press.
4. Austen, J. (2013). Northanger Abbey. Cambridge: Cambridge University Press.
5. Johnson, C. L. (1990). Jane Austen: Women, Politics, and the Novel. Chicago: University of Chicago Press.
6. Gilbert, S. M.; Gubar, S. (2000). The Madwoman in the Attic. New Haven: Yale University Press.
7. Cui, X. (2020). Female Consciousness in Jane Austen's Novels. Advances in Social Science, Education and Humanities Research.
8. LESSING, D. PHILOLOGICAL SCIENCES.

**ГЕЙДАРЛИ Ш.М.**

## ОСОБЕННОСТИ ВОПЛОЩЕНИЯ ЖЕНСКИХ ОБРАЗОВ В ПРОИЗВЕДЕНИЯХ ДЖЕЙН ОСТИН

### РЕЗЮМЕ

Романы Дж. Остин описывают психологию женщин, их социальный статус и свободу. В них представлен поиск женщиной самовыражения в рамках социальных норм Англии XIX века. Героини Дж. Остин воплощают собой вежливых, волевых и достойных женщин. Кроме того, героини писательницы радикально отличаются от других женщин её времени. Они представляют собой новый тип героини со своим рассудительностью, чувством юмора и даже смелостью совершать ошибки. С другой стороны, эти женщины превращают факторы, создающие конфликт с успешным поиском брака в отсутствие имущественных прав, в объект критики. По этой причине героини Дж. Остин не статичны. Они понимают свои ошибки и совершенствуются в ходе событий. Исходя из этих идей, автор статьи приходит к выводу, что героини Дж. Остин — это не просто наблюдатели, а персонажи, способные решать свою судьбу, даже бороться за свою жизнь.

**Ключевые слова:** Дж.Остин, реализм, женские образы, социальный статус, роман

**HEYDARLI SH.M.**

## FEATURES OF THE EMBODIMENT OF FEMALE CHARACTERS IN THE WORKS OF JANE AUSTEN

### SUMMARY

J. Austen's novels explore women's psychology, social status, and freedom. They depict women's search for self-expression within the social norms of 19th-century England. J. Austen's heroines embody polite, strong-willed, and dignified women. Furthermore, the writer's heroines are radically different from other women of her time. They represent a new type of heroine with prudence, a sense of humor, and even the courage to make mistakes. On the other hand, these women turn the factors that create conflict with the successful search for marriage in the absence of property rights into an object of criticism. For this reason, J. Austen's heroines are not static. They understand their mistakes and improve over time. Based on these ideas, the author of this article concludes that J. Austen's heroines are not mere observers but characters capable of determining their own destinies, even fighting for their lives.

**Keywords:** J. Austen, realism, female characters, social status, novel

**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent İlahə Tağızadə**